# *Yerdən ayağını quş kimi üzüb,*
# *Yay kimi dartınıb, ox kimi süzüb,*
# *Yenə öz sürünü nizama düzüb*

# *...Baş alıb gedirsən hayana, ceyran?*



*Kamil yaradılışın, qənirsizliyin, sehrin qarşısında əfsunlanmışam, mat-məəttəl, heyrət içərisində donub-qalmışam, ey Tanrı möcüzəsi! Nə yaxşı ki, varsan. Varsan və kainat yarananda gücün, yalanın, zorun, nifrətin, riyakarlığın, hegemonluğun əks təzahürü kimi xəlq edilmisən. Min illərdir ədəbiyyatda, musiqidə, sənətdə də elə həyatda olduğun təki saflıq, gözəllik, məsumluq, zəriflik, abır-həya təcəssümüsən.*

Özümdə azacıq təpər tapıb bu sirli, şirin yuxudan silkinib oyansam, astadan səni çağırsam, dönüb baxarsanmı, ceyran?! Qorxma, qulağın çalan çaxmaq səsi deyil, ayağım altında qalıb qırılan quru budağın şaqqıltısıdır; burnuna dəyən barıt iyi yox, "Düpont" ətri qarışıq papiros qoxusudur; qarşındakını da ovçu sanma – olsa-olsa, ala gözlərinin toruna düşmüş bir ov, ürkək baxışlarının əvəzində qalan girov, yerişin-duruşun müqabilindəki əsir-yesirəm.

Arada fürsətdən sui-istifadə edib aləmə naz satırsan, mənim ərköyünüm! Bir biləydim, od tutub yanan dünyadan xəbərin varmı? Sərhədlərimizdən kənar yaxında-uzaqda, hər yanda toplar gurlayır, minalar partlayır, güllələr yağır; kimyəvi silahların, kaset bombalarının məhv elədiyi, yurd-yuvasından didərgin saldığı təkcə sizlər, planetin flora-faunası, ana təbiət deyil, bütöv yaşayış məskənləridir, çoxlu sayda günahsız adamlar – qadınlar, uşaqlar, qocalardır.

**“BMT-nın rəsmi hesablamalarına görə, ev-eşiyindən məcburən köçkün düşənlərin ümumi sayı 230 milyonu keçib. Bərəkətli torpaqlar müharibə tonqallarının alov dili ilə yanıb-qarsıyıb, üzərində alaq otu da bitmir, okeanın o tayından püskürən nüvə hikkəsi Xirosima və Naqasakini nə günə qoydu, Yaxın Şərqə sahiblənmək üçün Suriyada necə qətliamlar, insanlıq dramları yaşanır, azğın ermənilər doğma Qarabağımda hansı faciələri, soyqırımları törətmədilər? İndi XXI əsrdə insan ovçuları peyda olub, ayrı-ayrı məkanlarda eyni vaxtda üç düymənin basılması kifayətdir ki, Yer kürəsi öz oxundan çıxıb sonsuz boşluğa yuvarlansın...**

Sən mənim Vətənimdə əziz-xələfsən , ay bəxtəvər – sayın azalmasın, nəslin kəsilməsin deyə "Qırmızı kitab"a salınmısan, artıb-çoxalmağından ötrü qoruqlar yaradılıb, əməlli-başlı dövlət qayğısı ilə əhatə olunmusan; ölməz şairimiz əbəs yerə deməyib ki:

*Əzəldən meylini salıb çöllərə,*
*Bəxtini tapşırdın bizim ellərə...*

Qoşmanın bəndini bitirməyə macal tapmamış həyəcanla qalxıb-enən sinəndən bir ah qopdu: "Ehh, keçmişlərdə sanki soyqırımla üzləşdik, sayımız yaman azaldı..."

– Bəli, bunun günahkarı biz, səbəbi isə yaşayış yerlərinizdə amansız münaqişələr, iqtisadi-təsərrüfat fəaliyyətinin genişlənməsi, qanunsuz ovlanmalardır. XIX əsrin ortalarında səhralarda, düzənliklərdə geniş yayılmışdız. Başınız nə müsibətlər çəkmədi? Zaqafqaziya dəmir yolu çəkilənədək Tiflisidən Bakıya qədər asudə gəzib-dolaşdız. Məskəniniz daha çox Qarabağ və Muğan düzləri idi.

Lakin qorxu qarışıq narahatlığının keçib-getmədiyini həyalı üzündən oxudum: "Ötən əsrin 60-cı illərində burada da ətimizə, dərimizə yerikləmişdilər, yoxa çıxmaq üzrə idik. Hazırda qorunmayan ərazilərdə yenə də bizlərə rast gəlinmir..."

– Aviahesablamalara əsasən, 1960–61-ci illərdə respublikamızda sayınız heç 200-ü də keçmirdi. Az-çox Mil-Qarabağ, Ceyrançöl, Acınohur, Şirvan düzündə və Cənub-Şərqi Şirvanda sizlərə təsadüf edilirdi. O dövrdə heyvanların mühafizəsinin gücləndirilməsi istiqamətində tədbirlərin görülməsi ceyran qətliamının da qarşısını aldı və 1972-ci ildə artıq 1500 fərd civarındaydız. Şirvan Dövlət Qoruğunun, Bəndovan, Korçay və Abşeron yasaqlıqlarının yaradılması sayəsində səksəninci illərdə sayınız artaraq 3–3,5 minə çatdı.

Söhbətin bu yerində xeyli aramlıq tapdığını hiss etdim, rahat nəfəs alıb dedi: "Sovet dönəmində yaxından-uzaqdan yağımız çox idi, rahatlığı, artımı müstəqillik dövründə gördük".

– Əlbəttə, belədir. Abşeron rayonunun inzibati ərazisinə aid və Qobustan-Cəngiçay Dövlət Təbiət Yasaqlığında artımın təmini məqsədilə 2010–2011-ci illəri əhatə edən "Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası" layihəsi icra olundu. Acınohur-Sarıca düzləri, Bozdağ silsiləsi, Mil düzü və Qobustan-Cəngiçay ərazilərini əhatələyən fəaliyyət planına əsasən, Şirvan Milli Parkından həmin areallara daha çox ceyran köçürüldü. Heydər Əliyev Fondu ekologiyanın və təbii mühitin tarazlığının qorunması, ekoloji tarixin və ölkə ərazisindəki bioloji müxtəlifliyin mühafizəsində müstəsna əhəmiyyət daşıyan həmin layihəyə böyük dəstək verdi.

**Qısa arayış:** mərhum prezident Heydər Əliyevin 2003-cü il 5 iyul tarixli sərəncamı ilə yaradılan Şirvan Milli Parkında ceyranların sayının davamlı artırılması üçün əlverişli şərait var. Milli Parkda ən müasir avadanlıqla təchiz olunmuş ekoturizm mərkəzi, ekotu-







rizm şəhərciyi və muzey fəaliyyət göstərir. Ceyranların bəslənmə və artırılma bazası sayılan Şirvan Milli Parkının yaradılması və həyata keçirilən mühafizə tədbirləri nəticəsində bu nadir heyvanların sayı sürətlə artır. 65 min hektardan artıq əraziyə malik parkda 9 min baş-dan çox ceyran saxlanılır. Bu da Avropa məkanında ən böyük ceyran populyasiyasıdır. Beyləqanda 18 min hektar ərazisi olan Ağgöl Milli Parkında da ceyranların reintroduksiyası uğurla davam etdirilir. Goranboy rayonundakı Korçay Dövlət Təbiət Qoruğunda 300 ceyran, Qax rayonundakı Acınohur və Sarıca düzlərində isə 3 ceyran sürüsü məskunlaşdırılıb.

Qəfildən nə xatırladısa, sevincini ayaqlarını yerə döyəcləyərək bildirdi: "Mən hətta ölkənin simvolu, rəmzi səviyyəsində beynəlxalq aləmə təqdim olunmuşam..."

– Doğrudur. 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunlarının Əməliyyat Komitəsi ceyran və narı ilk dəfə olaraq idman tədbirinin rəsmi simvolları kimi təqdim etdi. Siz ölkənin qürurlu tarixini və ümidverici gələcəyini göstərdiniz. "Bakı–2015"in təbliğatında brend rolunda çıxış edərək bütün dünyada birinci Avropa Oyunlarının simvoluna çevrildiniz. Çoxsaylı əcnəbi qonaqlara Azərbaycanın zəngin irsinə nəzər salmaq təklifi ilə oyunların mədəniyyət elçisi oldun. Ölkəmizə təşrif buyuranlara Qafqaz dağlarından tutmuş Xəzər dənizinin sahillərinədək bələdçiliklə Vətənimizin özünəməxsusluqlarını, gözəlliklərini nümayiş etdirdin. Bütün bunlara görə də sağ ol!

Söhbətimiz olduqca səmimi və mehriban şəraitdə keçsə də, ətrafdan boylanan həmcinslərinin onu naməhrəmlə yaxın ünsiyyət qurduğuna görə tərs və qınaqdolu baxışlarla süzmələri nəzərimdən yayınmadı. Tələm-tələsik sağollaşdıq: "Yeni görüşlərədək". Bir anlıq xalq arasında yayılmış məşhur deyimi xatırladım: bal arılarının tamamilə qırılıb qurtarması Qiyamət əlamətlərindəndir. Məncə, bu fikir ceyranlara da şamil oluna bilər; onları məhv etməklə mənəviyyatın, dünyanın, həm də özümüzün sonunu yaxınlaşdırmırıq ki?! Onunçün də yenidən Səməd Vurğun poeziyasına qayıtdım:

*Ovçu, insaf elə, keçmə bu düzdən!*
*O çöllər qızını ayırma bizdən!*
*Qoyma ağrı keçə ürəyimizdən, –*
*Qıyma öz qanına boyana ceyran!*
*Nə gözəl yaraşır Muğana ceyran!*

Qurban Məmmədov

